# XX ƏSRİN İLK ONİLLİYİNDƏ ABŞ-NİN YAXIN ŞƏRQ SİYASƏTİ

Məleykə ADIGÖZƏLOVA*

**Xülasə.** Məqalədə XXI əsrin əvvəllərində ABŞ-ın Yaxın Şərq strategiyasının geo-siyasi və konseptual əsasları, Yaxın Şərq siyasətinin bu mərhələsinin tarixi-siyasi aspektləri və səciyyəvi cəhətləri araşdırılacaq.ABŞ-ın Yaxın Şərqdə hərbi-siyasi strategiyasının formalaşmasına təsir edən ən ciddi amillərdən biri, Avropa, Asiya və Afrikanı birləşdirən nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən bölgənin faktiki coğrafi mövqeyidir. Son illərdə ABŞ bu mənada "Böyük Orta Şərq"-"Böyük Yaxın Şərq" termininindən istifadə edir.Bundan əlavə, region ölkələri sosial-iqtisadi cəhətdən fəal şəkildə inkişaf edirlər. Neft ixracından, turizmdən və iqtisadiyyatın digər sahələrindən əldə olunan gəlirlər ayrı-ayrı Yaxın Şərq ölkələrini sərbəst maliyyə mənbəyinə çevirir. Yaxın Şərqin amerikan istehsalçıları üçün böyüməkdə olan bir bazara və ABŞ iqtisadiyyatının investisiya mənbəyinə çevrilməsi Vaşinqtondan özünün Yaxın Şərq hərbi-siyasi strategiyasının hazırlanmasında və həyata keçirilməsində həmin amili nəzərə almağı tələb edir.

***Açar Sözlər:*** *Yaxın Şərq, Rəsmi Vaşinqton,C.Buş Doktorinası,Terrorizmlə Mübarizə,Ərəb Baharı.*

**The Middle East Policy of US in the First Decade of the 20th Century**

**Abstract:** This article will examine the geo-political and conceptual foundations of the US Middle East strategy at the beginning of the 21st century, the historical-political aspects and characteristics of this stage of the Middle East policy.

One of the most serious factors affecting the formation of the military-political strategy of the United States in the Middle East is the actual geographical position of the region, located at the intersection of transport corridors connecting Europe, Asia and Africa. In recent years, the United States has been using the term "Greater Middle East"-"Greater Middle East" in this sense.

In addition, the countries of the region are actively developing socio-economically. Incomes from oil exports, tourism and other areas of the economy make individual Middle Eastern countries a free source of finance. The transformation of the Middle East into a growing market for American manufacturers and a source of investment for the US economy requires Washington to consider that factor in the development and implementation of its Middle East military-political strategy.

***Key Words:*** *Middle East, Official Washington, J. Bush's Doctorate, Fight Against Terrorism, Arab Spring.*

## Giriş

Hər şeydən əvvəl, qeyd etmək istərdik ki, dünyanın fövqəldövləti ABŞ-ın Yaxın Şərq siyasəti daim ictimaiyyətin, politoloqların və tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Tədqiqatçılardan N.N.Əsgərovanın qeyd etdiyi kimi, 1950-ci illərdən sonra Vaşinqton öz gücünü Yaxın Şərqə doğru yönəltdi və böyük siyasi nüfuza malik olaraq, regionun əsas güc mərkəzinə çevrildi. Bu, regionun geo-strateji əhəmiyyətindən, ilk növbədə onun zəngin enerji ehtiyatlarından və çox zaman ABŞ-nin öz təşəbbüsü ilə müşayiət olunan qeyri-sabit siyasi mühiti ilə əlaqəli idi. ABŞ-nın Yaxın Şərqdə enerji təhlükəsizliyinin təmin edilməsi, ABŞ-İsrail müttəfiqliyi və ABŞ-nin Yaxın Şərq regionunda terrora qarşı mübarizəsi ABŞ-nin Yaxın Şərq siyasətinin əsas istiqamətini təşkil etmişdir ( Əsgərova, 2018: 5-6). 2001-ci il 11 sentyabr hadisələrindən sonra isə ABŞ özünün Yaxın Şərq siyasətində köklü dəyişiklik etdi. Bu, özünü ABŞ-nin Liviya və Suriya siyasətində də büruzə verdi. Bu dəyişikliklər nədən ibarət idi? Yalnız Liviya və Suriyaya münasibətdə təzahür edirdimi? Yoxsa söhbət 11 sentyabr terror aktından sonra ABŞ-nin Yaxın

Şərq siyasətinin transformasiyasından gedir? Bizim fikrimizcə, Ərəb baharı ərəfəsində ABŞ-ın Liviya və Suriya ilə əlaqələri Yaxın Şərq siyasəti konteksində davam vermişdir.Göstərilən bölgənin ayrı-ayrı ölkələrinə münasibətdə həyata keçirilmiş amerikan xarici siyasət strategiyası məzmunca ciddi şəkildə fərqlənməmişdir.

## ABŞ-In Yaxın Şərq Regionuna Marağının Yaranması və Bunu Doğuran Amillər

II Dünya müharibəsindən sonra ABŞ-ın bütünlükdə xarici siyasət doktrinası Amerikanın bütün sahələrdə - siyasi, iqtisadi və hərbi sahələrdə qlobal gücə və nüfuza sahib

* Bakı Avrasiya Universiteti, Humanitar fənlər və regionşünaslıq kafedrasının müəllimi, e-mail: a.meleyke09@gmail.com

olan yeganə dövlət olaraq qalması postulatına əsaslanırdı. Amerika xarici siyasət doktrinalarının reallaşmasına bölgənin ayrı-ayrı ölkələrini ("şər ölkələr") digər "mədəni" dövlətlərlə qarşı-qarşıya qoymaqla uzun müddət işlənmiş siyasi texnologiyalardan istifadə etməklə nail olunur belə bir qarşıdurmada "sülhsevər" və "hakim" rolunda şübhəsiz ki, ABŞ çıxış edirdi.

ABŞ-ın Yaxın Şərqdə hərbi-siyasi strategiyasının formalaşmasına təsir edən ən ciddi amillərdən biri, Avropa, Asiya və Afrikanı birləşdirən nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən bölgənin faktiki coğrafi mövqeyidir. Son illərdə ABŞ bu mənada “Böyük Orta Şərq"-“Böyük Yaxın Şərq” terminindən istifadə edir.

Fars körfəzi zonasında Hörmüz boğazından keçərək, Qırmızı dənizdən Süveyş kanalı ilə Aralıq dənizinə gedən əsas tranzit yolu, Aralıq dənizindən Hind okeanına və daha sonra Asiya-Sakit okean regionuna qədər dəniz yolunu əhəmiyyətli dərəcədə qısaldır.

ABŞ-ın Yaxın Şərqdəki hərbi-siyasi strategiyasının formalaşmasına təsir edən digər beynəlxalq siyasi amil yarım əsrdən çox davam edən Yaxın Şərq münaqişəsidir.

Yaxın Şərq münaqişəsinə nəzər saldıqda bu konfliktin mürəkkəb bir struktura malik olduğu ortaya çıxır. Bu mürəkkəblik ərazi, siyasi, iqtisadi, beynəlxalq hüquqi, milli-etnik, dini və mədəni xarakterli qarşılıqlı ziddiyyətlərin xüsusi bir şəkildə çulğalaşması ilə izah olunur. Unutmaq olmaz ki,Yaxın Şərqdə II Dünya Müharibəsindən sonra ərəb və yəhudi xalqları arasında etnik-konfessional qarşıdurma davam etməkdədir ki, bu da öz xüsusiyyətlərinə görə bəlkə də dövrümüzün ən mürəkkəb ziddiyyətidir.

Ümumiyyətlə, Yaxın Şərq münaqişəsinin ən vacib struktur komponentləri bunlardır:

1. Fələstin problemi - Fələstin ərəb xalqının öz müstəqil dövlətinin olmaması, İsrailin nəzarət etdiyi Fələstin Muxtariyyətinin sakinlərinin çətin sosial və iqtisadi vəziyyətdə olması və ərəb ölkələrində çoxlu fələstinli qaçqınların yerləşməsi;

2. Ərəb-İsrail müharibələrində daha kəskin mərhələyə keçən ərəb-İsrail hərbi qarşıdurması (1948-1949-cu illər müharibəsi və 1956-cı ildə Süveyş böhranı, 1967-ci ilin iyununda altı günlük müharibə, 1973-cü il oktyabr müharibəsi, 1982-ci ildə Livanda İsrail təcavüzü və s.)

3. Bölgənin ərəb ölkələrində regional xarakterli münaqişələr.Onların məzmunu hər bir ölkənin daxili şəraiti ilə müəyyən edilir, lakin onların əsl səbəbləri ümumi ərəb-İsrail qarşıdurması müstəvisindədir, bütövlükdə Yaxın Şərq münaqişəsinin həll edilməməsindədir.

4. Bölgə ölkələri ilə digər geosiyasi subyektlər arasında silahlı qarşıdurmalar. Bu halda söhbət ABŞ və müttəfiqlərinin İraq və Əfqanıstana qarşı hərbi müdaxilələrindən gedir və s.

5. Bəzi hallarda "sivilizasiyaların toqquşması" kimi şərh edilən dinlərarası, konfessiyalararası ziddiyyətlər. İslam, iudaizm və xristianlığın ekstremist dairələrinin nümayəndələrinin aktiv fəaliyyətləri buna imkan verir;

6. Tez-tez Yaxın Şərq münaqişəsinin müstəqil subyektləri kimi çıxış edən və bölgə dövlətlərinin nəzarətindən kənarda olan ekstremist təşkilatların terrorçuluq fəaliyyətləri.

ABŞ-ın Yaxın Şərq münaqişəsindən birbaşa siyasi, iqtisadi və hərbi fayda əldə etmək istəyi Vaşinqtondan hərbi-siyasi strategiyasını hazırlayarkən münaqişələrin idarə edilməsi mexanizmlərini təmin etməsini tələb edir.

ABŞ-ın Yaxın Şərqdə hərbi-siyasi strategiyasını müəyyənləşdirən əsas iqtisadi geosiyasi amillər bölgədə böyük enerji və maliyyə qaynaqlarının olması, habelə Yaxın Şərq ölkələrinin dünya iqtisadiyyatındakı artan rolu hesab olunur. Bölgədəki geosiyasi qüvvələrin uyğunlaşdırılması, dünyanın sübut edilmiş neft ehtiyatlarının 64% -nin burada cəmləşməsi ilə müəyyən edilir və bu səbəbdən Yaxın Şərq, ilk növbədə Fars körfəzinin neft hasil edən ölkələri yaxın gələcəkdə əsas dünya neft anbarı statusunu qoruyub saxlayacaqlar (Гусейнов B.A., 2007; 21). Buna görə də ABŞ öz enerji təhlükəsizliyini təmin etmək üçün Yaxın Şərq bölgəsini hərbi-siyasi strategiyasının ən vacib vektoru kimi müəyyən etmişdir.

Bundan əlavə, region ölkələri sosial-iqtisadi cəhətdən fəal şəkildə inkişaf edirlər. Neft ixracından, turizmdən və iqtisadiyyatın digər sahələrindən əldə olunan gəlirlər ayrı-ayrı Yaxın Şərq ölkələrini sərbəst maliyyə mənbəyinə çevirir. Yaxın Şərqin amerikan istehsalçıları üçün böyüməkdə olan bir bazara və ABŞ iqtisadiyyatının investisiya mənbəyinə çevrilməsi Vaşinqtondan özünün Yaxın Şərq hərbi-siyasi strategiyasının hazırlanmasında və həyata keçirilməsində həmin amili nəzərə almağı tələb edir.

ABŞ-ın Yaxın Şərqdə hərbi-siyasi strategiyasının formalaşmasının hərbi-strateji geosiyasi amilləri regionun münaqişə potensialının artması ilə, daxili ziddiyyətlərin birbaşa silahlı qarşıdurma mərhələsinə tez-tez keçməsi ilə əlaqələndirilir. Fars körfəzində ABŞ-ın güclü hərbi qruplaşmalarının daim olması, ərəb ölkələri ərazilərində hərbi bazaların saxlanılması, ABŞ-ın İsrail Dövlətini qorumaq üçün üzərinə götürdüyü müttəfiqlik öhdəlikləri, İranın nüvə proqramını inkişaf etdirmək istəyi və s. ABŞ-ın Yaxın Şərqdə hərbi-siyasi strategiyasında hərbi güc komponentinin rolunu artırır.

ABŞ-ın Yaxın Şərqdə hərbi-siyasi strategiyasının formalaşmasının kulturoloji, mədəni - sivilizasion amilləri Birləşmiş Ştatlar və onun müttəfiqlərinin İslam dünyası ilə qlobal qarşıdurmasının böyüməsi ilə birbaşa əlaqəlidir. Üstəlik, Yaxın Şərqdə bu qarşıdurma ən kəskin formalara malikdir. Qərb ölkələri ilə müsəlman dövlətləri arasında münasibətlərin kəskinləşməsi beynəlxalq terrorizmin müasir geosiyasi qarşıdurma sistemində subyektivləşməsinə şərait yaradır. Müasir geosiyasi şəraitdə bu fenomenin ən təhlükəli əlamətlərindən biri beynəlxalq terrorizmin qlobal geosiyasi qarşıdurmada birbaşa iştirak etməsidir. Terrorçuluq fəaliyyətinin təşkilatçılarının özləri və onların bəzi rəqibləri, son illərdə baş verən terror aktlarının əksəriyyətinin müsəlman ekstremist təşkilatlarının nümayəndələri tərəfindən törədilməsinə toxunaraq, dünyada baş verən son hadisələri "sivilizasiyaların toqquşması" kimi, ilk növbədə, İslam və Xristianlıq sivilizasiyaları arasındakı qarşıdurma kimi şərh etməyə çalışırlar. Bu zaman E.Xantinqtonun "Sivilizasiyaların toqquşması" konsepsiyasına istinad edilir. Buna əsasən, ABŞ-ın Yaxın Şərq hərbi-siyasi strategiyasında Vaşinqtonun müasir dünyada terrorizmin əsas səbəbi hesab etdiyi İslam siyasi ənənəsinə qarşı mübarizənin, "Yaxın Şərqin demokratikləşdirilməsi" siyasətinin həyata keçirilməsinə xüsusi yer verilirdi.

**ABŞ-In Regionda Xarici Siyasətinin Mərhələləri**

Bəzi tədqiqatçılar hesab edirlər ki, "Orta (Yaxın") Şərq" ifadəsi ilk dəfə Amerika hərbi dəniz zabiti Alfred Mahan tərəfindən səsləndirmişdir. Bu bölgə yalnız İkinci Dünya müharibəsindən sonra geosiyasi əhəmiyyət qazanmışdır. ABŞ-ın Yaxın Şərqdə aktiv xarici siyasətini şərti olaraq aşağıdakı mərhələlərə bölmək olar:

1) 1945-1956-ci illər. Sosialist düşərgəsinin yaranması və Soyuq müharibənin başlaması ilə ABŞ administrasiyası əsas diqqətini "SSRİ-nin qarşısını almağ" a yönəltdi. O dövrün bir sıra Amerika strateqlərinin fikrincə, Sovet İttifaqının Yaxın Şərq bölgəsinə nüfuz etməsi "qlobal güc balansında kəskin dəyişikliyə" səbəb olacaqdır. Bununla yanaşı, Yaxın Şərq neftinin Sovet nəzarəti altına keçməsi "azad dünya iqtisadiyyatına ciddi zərbə olardı" (Campbell, 1950: 4-6).

Bu dövrdə ABŞ həmçinin, İngiltərəni bölgədən çıxarır və burada öz mövqeyini möhkəmləndirir. Prezident F.Ruzvelt və Səudiyyə Ərəbistanı Kralı Əbdüləzizin 1945-ci ildə "Kvinsi" kreyserində görüşü, 1948-ci ildə İsrailin yaradılması və Yaxın Şərqdə strateji müttəfiqinə çevrilməsi, 1941-1953-cü illərdə ABŞ-ın İranla yaxınlaşması, ABŞ-ın Bağdad Paktı və 1955 – 1979-cu illərdə CENTO qruplaşmasında qeyri-rəsmi iştirak etməsi, 1952-ci ildə Türkiyənin NATO-ya daxil olması bu mərhələnin əhəmiyyətli hadisələri idi.

Bundan sonra Yaxın Şərqdə çoxsaylı Amerikan təşəbbüsləri (doktrinaları) ortaya çıxmağa başladı.

2)1957-1970-ci illər. 1957-ci ildə Misir inqilabından və Süveyş böhranından sonra ABŞ Yaxın Şərqi kommunizmdən qorumaq məqsədi ilə bölgə ölkələrinin daxili işlərinə birbaşa müdaxilə etmək üçün bütün imkanlarından istifadə etməyə qərar verdi ("Eyzenhauer doktrinası"). Eyzenhauer doktrinasının məqsədi Böyük Britaniyanın və ya Fransanın vasitəçiliyi olmadan Yaxın Şərq işlərində Amerika liderliyinin (Qərb cəbhəsinin) qurulması idi.

3) 1971-1979-cu illər. 1971-ci il şərti olaraq ABŞ-ın əvvəlki hədəflərinə çatdığı və Böyük Britaniyanın bölgədəki mövqeyinin dəyişdiyi istinad nöqtəsi olaraq götürülə bilər. Çünki həmin ildə London Yaxın Şərqdəki bütün müstəmləkələrini itirdi (1967-ci ildə Cənub Yəmən müstəqillik qazandı,1971-ci ildə - Oman, Qatar, Bəhreyn və Birləşmiş Ərəb Əmirlikləri). Prezident Riçard Nikson tərəfindən ingilislərin "çəkindirmə" siyasətindən köklü şəkildə fərqlənən bir strategiya qəbul etdi. Bu strategiya regionda"dayaqların" - güclü müttəfiq regional güclərin - İsrail, Misir, Türkiyə, Səudiyyə Ərəbistanı və İranın yaradılmasını nəzərdə tuturdu. Vaşinqton müttəfiqlərini, Misir istisna olmaqla, hərbi və siyasi cəhətdən gücləndirdi ki, bu da həmin ölkələrin bölgədə mövqelərinin möhkəmlənməsinə səbəb oldu.

4) Dördüncü mərhələ (1979-2001) ABŞ-ın strategiyasını köklü şəkildə dəyişdirməsi ilə -Yaxın Şərqdə birbaşa hərbi müdaxiləyə keçmək və hərbi münaqişələrə qarışmaq siyasəti ilə xarakterizə olunur. Dönüş nöqtəsi 1979-cu il oldu. Bu zaman İranda Amerika siyasətinin dayaqlarından birini məhv edən bir inqilab baş verdi; Əfqan müharibəsi başladı; Efiopiyada bir marksist inqilabı baş verdi; YƏR ilə Yəmən Demokratik Xalq Respublikası arasında cənubluların qələbəsi ilə bitən sərhəd qarşıdurması yaşandı. (Звягельская,1990: 23). Bu hadisələrin təsiri altında 1980-ci ildə Amerikanın Yaxın Şərqə hərbi müdaxiləsinin mümkünlüyünü vurğulayan C.Karter doktrinası meydana gəldi. Sonralar R. Reyqanın prezidentliyi dövründə regional münaqişələrin ABŞ və müttəfiqlərinin təhlükəsizliyinə birbaşa təhdid kimi nəzərdə tutan və SSRİ-yə qarşı durmağın ən vacib sahəsi kimi görürən "aşağı intensivli münaqişə" doktrinası hazırlandı.Strategiya, eyni zamanda yerli dövlətlərin (o cümlədən, İran) hərəkətləri nəticəsində regional sabitliyin pozulması hallarına da şamil edilmişdi. Fars körfəzi zonasında ABŞ-ın hərbi mövcudluğu 1987-ci ildən, İran-İraq müharibəsi "tanker fazası"na keçdikdə ABŞ donanmasının körfəzə daxil olduğu vaxtdan sayılmaqdadır.(Братерский М.В 2005; 143). Nəhayət, ABŞ –ın başçılıq etdiyi koalisiya 1990-1991-ci illərdə Fars körfəzində "Səhrada fırtına" əməliyyatına hazırlıq zamanı qəti olaraq möhkəmləndi. Həmçinin, Küveytdəki müharibə bölgədə ABŞ-ın yeni bir strategiyasının – "ikiqat sderjivaniye" siyasətinin - İran və İraqın ortaya çıxmasına səbəb oldu. Sovet İttifaqının dağılması ABŞ-a əlavə imkanlar verən, o cümlədən Yaxın Şərqdə əlverişli xarici siyasət yürütmək üçün vacib bir amil oldu.

5)2002-2010-cu illər. Hərbi müdaxiləyə yönəlmiş ən görkəmli strategiya ("Buş doktrinası") XXI əsrin əvvəllərində, oğul Corc Buşun prezidentlik dövründə neokonservatorların - Dik Çeyni, Donald Ramsfeld, Kondoliza Rays, Pol Vulfoviç və başqalarının ABŞ-ın xarici siyasətinə dominant təsir göstərdikləri zaman meydana gəldi. Bu zaman ABŞ minlərlə hərbi kontingentini (koalisiya qüvvələri ilə birlikdə) Əfqanıstana (2001) və İraqa (2003) yeritdi, bu hərbi qüvvələr müvafiq olaraq 118 min nəfərə(Сатаров, 2015: 12) çatırdı və yaxud 183 min nəfərdən az deyildi (Coalition Forces in Iraq).

Eyni zamanda, 2002-ci ildə, Vaşinqtonda demokratikləşmə adı altında bölgədə xaricdən idarə olunan dəyişikliyə yönəlmiş "Böyük Yaxın Şərq" konsepsiyası hazırlanmış, 2006-cı ildə MTS yenilənmişdir. Bu barədə bir qədər sonra bəhs ediləcəkdir.

6) ABŞ-ın Yaxın Şərqdəki xarici siyasətinin altıncı mərhələsi Barak Obamanın prezidentliyinin ilk illərində başladı. Bu mərhələ bir neçə əsas tendensiya ilə xarakterizə olunur. Əvvəla, prioritetlərdə dəyişiklik oldu, nəticədə tam miqyaslı silahlı təcavüzkarlıq əsas vasitə kimi imtina edildi. ABŞ-ın 2010-2011-ci illərdə qüvvələrinin əsas hissəsini İraqdan

çıxartması yeni dövr üçün bir növ istinad nöqtəsi sayıla bilər. Sonra 2014-cü ildə əsas kontingent Əfqanıstandan çıxarıldı.

Ancaq ABŞ-ın Yaxın Şərqi tamamilə tərk etdiyini söyləmək düzgün olmaz. Əvvəla, göstərmək lazımdır ki, ABŞ silahlı qüvvələrini Yaxın Şərqdən, o cümlədən İraqdan və Əfqanıstandan, tam olaraq çıxarmamışdır. Belə ki, Əfqanıstanla ABŞ-ın 2024-cü ilə qədər Baqramdakı hava bazasında və ən azı digər səkkiz bazada yerləşməsinə icazə verən bir müqavilə imzalanmışdır[9]. Suriya və İraqda isə 2016-cı ilin birinci yarısında Amerika xüsusi təyinatlılarının kontingentə artım müşahidə edildi ( bu, qanuni hökumətin müvafiq icazəsi olmadan baş verir və əslində xarici dövlətin işlərinə qanunsuz müdaxilə hesab olunur). ABŞ-ın 2011-ci ildə Liviyaya və 2013-cü ildə Suriyaya birbaşa hərbi müdaxilədən imtina etməsi də bu tendensiyaya uyğundur. İkincisi, Vaşinqton "Ərəb baharı"ndan və "proksi-müharibə"[*]dən (ingiliscə "proxy"- etibarlı, səlahiyyət, nümayəndə) birbaşa hərbi təcavüzə alternativ tədbir olaraq istifadə etməyə başladı. Nəticədə bölgədəki dörd ölkədə (Tunis, Misir, Liviya, Yəmən) liderlər devrildi. Suriya və İraqda müharibələr davam edir. ölkələrdə demokratik, iqtisadi cəhətdən çiçəklənən, açıq və tolerant cəmiyyətlərin qurulmasıdır. M.M.Rabiyə görə, bu layihə, ABŞ və NATO müttəfiqləri tərəfindən demokratiyanın yayılması, insan hüquqlarının təmin edilməsi və SSRİ və Şərqi Avropada kardinal iqtisadi dəyişikliklərin aparılması məqsədi ilə hazırlanmış 1975-ci il Helsinki Yekun Aktını xatırladırdı (Ашвад А ,2008; 78-79). Bu hesabatlarda ərəb cəmiyyətini bürüyən böhran və müxtəlif ərəb ölkələrində əsl humanitar yüksəliş yolu qarşısında duran maneələr araşdırılırdı. Bu iki hesabatda yer alan və ərəb cəmiyyətlərinin geriliyi və zəifliyini əks etdirən məlumatlara əsaslanaraq, Böyük Yaxın Şərq planı bölgədə vəziyyəti "acınacaqlı" olaraq xarakterizə etdi. Layihə müəlliflərinin fikrincə, bu vəziyyət ekstremizm, terrorizm, beynəlxalq cinayətkarlıq və qanunsuz miqrasiyanın daha da geniş yayılmasına səbəb olacaqdır.N.Xamaşinin qeyd etdiyi kimi, müasir ərəb dünyasında sivilizasiya böhranının dərinliyini göstərən statistikaya istinadən, layihə tərtibçiləri beynəlxalq hesabatın bölgədə dərhal fəaliyyətə başlamağa, onu məruz qaldığı "təhdidlərdən" qoruya biləcək ciddi yollar tapmağa inandırıcı bir çağırış olduğunu vurğuladılar (Ашвад, 2008: 79). Təklif olunan yol islahatların keçirilməsi idi.

Dəyişikliklərin tərkib hissəsi kimi aşağıdakılar təklif olunurdu:1) demokratiyanın və faydalı effektiv idarəetmənin təşviq edilməsi;2) informasiya cəmiyyətinin qurulması;3) iqtisadi imkanların genişlənməsi və qadınların azad edilməsi.

Beləliklə, ABŞ xarici siyasətində Yaxın və Orta Şərq ölkələrinə müdaxiləni əsas götürdü. Regionda "qeyri - demokratik rejimlər" pərdəsi altında həmin ölkələrə hərbi-siyasi müdaxilə və hakimiyyətlərinin devrilməsi, bu regiona demokratiya gətirmə niyyəti və ən əsası terrora qarşı müharibə XXI əsrin əvvəllərində ABŞ-ın Yaxın Şərqdə yürütdüyü siyasətin başlıca istiqamətlərindən birini təşkil edirdi

ABŞ xarici siyasətində "Böyük Orta Şərq" bölgəsinin meydana çıxması, Amerikanın bölgədəki xarici siyasətində ciddi bir dəyişiklik hesab edilə bilər. ABŞ-da C.Buş hakimiyyətə gəlməzdən əvvəl "Yaxın Şərq münaqişəsi" ifadəsi, bir qayda olaraq, İsrail ilə qonşu ölkələr arasında, həmçinin İsrail ilə İordan çayının qərb sahili və Qəzza zolağındakı münaqişəni təsvir etmək üçün istifadə edilmişdir.

C. Buş hakimiyyətə gəldikdən sonra Yaxın Şərq problemlərinə yanaşmanı dəyişdirdi. B. Klintondan fərqli olaraq C. Buş bildirdi ki, Yaxın Şərqdə sülh prosesinin uğur qazanması üçün İsrail və Fələstin, eləcə də İsrail və yaxın qonşuları arasında vasitəçilik kifayət deyildir. Bunun üçün Fələstində terrorizmi dəstəkləyən Yaxın Şərq dövlətlərindəki siyasi rejimləri də məhv etmək lazımdır və bu, İraqdan başlamalıdır. Amerika lideri C. Buşa görə, İraqda S.Hüseyn rejiminin mövcud olduğu müddətdə İsrail ilə Fələstin arasında barış əlçatmaz olacaqdır. Müvafiq olaraq, S.Hüseyn rejiminin məhv edilməsi Yaxın Şərq tənzimlənməsi

istiqamətində atılan addımlardan biri kimi qiymətləndirildi. Bundan əlavə, Amerika liderinin fikrincə, S.Hüseyn rejiminin ləğvindən sonra İraqın demokratikləşməsi təkcə İsrailə qonşu olan ölkələrdə deyil, məsələn, Şimali Afrika ölkələrndə də "Böyük Yaxın Şərq" boyunca demokratikləşməyə öz töhfəsini verəcəkdir( Əsgərova, 2008: 16).

Beləliklə, bu strategiyada beynəlxalq terrorizm və kütləvi qırğın silahlarının (KQS) yayılması ABŞ-ın milli təhlükəsizliyinə əsas təhdid adlandırıldı. Strategiya, dövlətlərin (ölkələrin adları göstərilmirdi) və terror qruplaşmalarının ABŞ və müttəfiqlərini KQS-dən istifadə ilə hədələmək cəhdlərinin qarşısını almaq üçün qabaqlayıcı tədbirlər konsepsiyasını elan etdi: “Amerika ortaya çıxan təhdidlərin tamamilə formalaşmasını gözləmədən, onlara qarşı hərəkət edəcəkdir” (Bush G.W. President's…; 2002). Bundan əlavə, lazım gələrsə, ABŞ təkbaşına hərəkət etmək hüququnu özündə saxladı. Sənəddə terrorizmlə mübarizədən əlavə dünyada demokratiyanın və insan hüquqlarının (siyasi və iqtisadi azadlıq, insan ləyaqətinə hörmət) yayılması, açıq cəmiyyətlərin inkişaf etdirilməsi, Rusiya da daxil olmaqla digər qlobal güc mərkəzləri ilə birgə fəaliyyətin genişlənməsi məqsəd olaraq elan edildi. MTS - 2002 ifadə etdi ki, ABŞ və Rusiya artıq strateji düşmən deyildir. ABŞ Rusiya ilə yeni səviyyədə əməkdaşlıq etməyə hazır olduğunu bildirirdi.

2006-cı ilin martında dərc edilən Milli Təhlükəsizlik Strategiyasında ABŞ-ın beynəlxalq terrorizmlə müharibə etdiyi bildirildi. Əvvəlki sənəd kimi, 2006-cı il strategiyası əslində ABŞ-ın həm ölkə daxilində, həm də xaricdə terrorizmə qarşı mübarizə strategiyası idi (burada təhlükənin preventiv dəf edilməsi və zəruri hallarda təkbaşına hərəkət etmək prinsipləri qalırdı). 2002-ci il Strategiyasında olduğu kimi, sənəddə dünyada demokratiyanın inkişafı və KQS-nin yayılmasının qarşısının alınması məsələlərinə mühüm yer verilmişdir. ABŞ-ın əsas düşmənləri Vaşinqtonun nüvə silahını inkişaf etdirməkdə və terrorçulara sığınacaq verməkdə günahlandırdığı İran və nüvə silahlarının yayılması baxımından təhlükə yaradan KXDR elan edildi. Despotik rejimlərə Suriya, Kuba, Belarusiya, Myanma və Zimbabve aid edildi(National Security Strategy, 2006: 29).

Barak Obama administrasiyası tərəfindən 2010-cu ilin may ayında açıqlanan strategiyada, "ABŞ vətəndaşlarının təhlükəsizliyini təmin etmək", ölkənin hərbi gücünü möhkəmləndirmək və ilk növbədə “qlobal liderliyi” qorumaq birinci yerə keçdi. Sənəddə vurğulandığı kimi, “silahlı münaqişə son vasitə olmalıdır” və yalnız diplomatik səylərin iflasa uğraması halında müraciət edilməlidir. Müttəfiqlər və digər ölkələrlə tərəfdaşlıq nüvə silahının və terrorizmin yayılması kimi problemlərin qarşısının alınmasında mühüm rol oynamalıdır. Bundan əlavə, MTS -2010-da terrorçulara və qondarma “yaramaz dövlətlər”ə qarşı qabaqlayıcı tədbirlərə başlatmaqdan imtina edirdi ki, bu da Corc U. Buşun siyasətindən uzaqlaşmaq demək idi. Beynəlxalq ekstremizmə qarşı mübarizə ilə yanaşı, yeni doktrina ilk dəfə olaraq ölkə daxilində terrorizmə qarşı mübarizənin vacibliyini vurğulayırdı.ABŞ "digər əsas təsir mərkəzləri ilə, o cümlədən Çin, Hindistan və Rusiya ilə dərin və daha təsirli tərəfdaşlıq qurmağa hazırdır". Sənəddə Rusiyanın "beynəlxalq aləmdə güclü bir oyunçu olaraq yenidən göründüyü" qeyd olunurdu (National Security Strategy, 2002).

Barak Obama administrasiyasının 2010-cu ildə müəyyən etdiyi milli maraqlar və prioritet vəzifələr aşağıdakı kimi formalaşırdı: “Taliban” hərəkatını zəiflətmək və Əfqanıstan və Pakistana hərbi-siyasi yardım göstərməklə Əl-Qaidə terror təşkilatını ləğv etmək və infrastrukturu sarsıtmaq; İraqın suverenliyinin tamamlanması və bütün hakimiyyətin İraqa tam ötürülməsi ilə ABŞ qoşunlarının çıxarılması; İsrail və ərəb qonşuları arasındakı Yaxın Şərq münaqişənin sülh yolu ilə həll edilməsi; İsrailin təhlükəsizliyini təmin etmək və eyni zamanda fələstinlilərin öz dövlətini yaratmaq kimi qanuni istəyini həyata keçirmək. Daha geniş mənada, İslam dünyası ilə siyasi tərəfdaşlığı təşviq etmək, həm ABŞ-ın, həm də bütövlükdə qlobal iqtisadiyyatın davamlı inkişafını təmin etmək, o cümlədən G20 və digər beynəlxalq təşkilatlarda və formatlarda qarşılıqlı – faydalı fəaliyyət göstərməklə iqtisadi gücü canlandırmaq. İnsan hüquqlarının və insan dəyərlərinin bütün dünyada tanıdılması, Qərb

demokratiyası ilə sıx qarşılıqlı əlaqə, dialoq və məlumat texnologiyalarının dünya miqyasında yayılması, beynəlxalq aləmdə ABŞ-ın milli maraqlarına cavab verən yeni bir nizamın formalaşması və qlobal çağırışların və təhdidlərin, xüsusilə iqlim dəyişikliyi, yoxsulluq, vəba və s. -nin həlli üçün məsuliyyətli bir yanaşma tələb etmək (National Security Strategy, 2002).ABŞ-ın müttəfiqləri və tərəfdaşları ilə əməkdaşlığa fərqli yanaşma Barak Obama və oğul Corc Buşun strategiyaları arasındakı əsas fərq sayıla bilər. Belə ki, "Buş doktrinası" ABŞ-ın maraqları üçün daha çox təkbaşına hərəkətlərin mümkünlüyünə istinad edirsə, Barak Obamanın sənədində ABŞ-ın liderliyi altında çoxtərəfli əməkdaşlığa və birgə fəaliyyətə vurğu edilir. Bu yanaşma bir çox cəhətdən ABŞ-ın İraq və Əfqanıstana hücumundan və digər təkbaşına hərəkətlərdən sonra müttəfiqlərin və beynəlxalq birliyin itirilmiş etimadını bərpa etmək istəyi ilə bağlıdır. Tərəfdaşlar və müttəfiqlər dedikdə Aİ və NATO-ya üzv ölkələr nəzərdə tutulurdu.

Bundan əlavə, amerikalılar, hesab edirdilər ki, ABŞ-ın milli təhlükəsizliyini "təhdid edən" istənilən hökuməti devirmək hüququna sahibdirlər. Hərbi coğrafiyaşünaslar (Bernard L., Ralf P., Rabin R.) praktiki məqsədlər üçün Yaxın Şərqin bir sıra xəritələrini hazırlamışdılar. Bu xəritələrdə dövlətlərin sərhədləri indikindən. Diqqəti çəkən məqam odur ki, hazırda bu konsepsiya geniş müzakirə olunmasa da və ümumiyyətlə, əvvəlki administrasiyaların işinin bəhrəsi hesab olunsa da, onun ləğvi elan olunmamışdır(Сатаров 2015: 172) fərqlənirdi. "Böyük Yaxın Şərq" konsepsiyası nəzərdə tuturdu ki, regionda dəyişiklik prosesi 30-35 il çəkəcəkdir.

**Nəticə**

2011-ci ildə Liviyadakı hərbi əməliyyatlar,vaxtilə C.Buşun rəhbərliyi altında "qələbəyədək müharibə"ni xatırladır(Woodward, 2002: 42) və diktaturaya qarşı demokratiya uğrunda mübarizədə müxalif qüvvələrə dəstək verməyə hazır olması barədə bəyanatlar, B.Obama administrasiyasının hansı formada qlobal strategiyanı davam etdirməsi ilə bağlı heç bir təsəvvür yaratmadı. Bu forma rəhbərlikdən uzaqdır. Müxtəlif dövrlərdə "qlobal polis (və ya şerif)", "xeyirxah imperiya", "əvəzolunmaz millət" sözləri ilə ifadə olunan bir formatda siyasəti davam etdirmək, yoxsa özünü güc mərkəzlərindən biri kimi tanıyaraq və sözdə deyil, Amerika görüşünə tam uyğun gəlməsə də, əməldə başqa güclərin də dünya nizamının təməlinin formalaşmasında iştirak etməsinə imkan vermək.

2011-ci ildə B. Obama və onun administrasiyasının ABŞ-a əvvəlki administrasiyalardan fərqli bir yeni bir şey gətirəcəyinə və söz verdiklərinin hamısını həqiqətən yerinə yetirəcəyinə şübhələr yarandı.

Beləliklə, Soyuq müharibənin sonunda ənənəvi olaraq Yaxın Şərq və Şimali Afrika bölgəsində Amerika strategiyasının 4 amili müşahidə olunur: 1) neft ehtiyatlarına nəzarət; 2) bölgədə satış bazarlarına zəmanət vermək; 3) İsrailin təhlükəsizliyini təmin etmək; 4) İslamçı İranla qarşıdurma. 2001-ci ilin sentyabr ayından etibarən C.Buşun (oğul) administrasiyası beynəlxalq terrorizmə qarşı mübarizəni buraya əlavə etdi. İki siyasi xətlə - islamçıların hakimiyyətə gəlməsinə əngəl olmaqda İsrailin və despotik Yaxın Şərq rejimlərinin dəstəyi ilə qarşılaşan ABŞ sonunculara münasibətini yenidən nəzərdən keçirməyə başladı. ABŞ üçün karbohidratların əsas istehlakçısı olan Çin ilə artan strateji rəqabəti fonunda Yaxın Şərq neftinə nəzarət vacib idi. Çünki xammal resurslarına nəzarət etməklə Çin iqtisadiyyatının və hərbi-sənaye kompleksinin iqtisadi inkişafını tənzimləmək olardı.

Qeyd etmək lazımdır ki, ABŞ –nin birqütblü dünya nizamını yaratmaq istəyi, BMT Təhlükəsizlik Şurasından yan keçərək, suveren dövlətlərə qarşı hərbi güc tətbiq etməsi, digər ölkələrin daxili işlərinə müdaxilə etmək hüququndan istifadə etməsi və müxtəlif intensivlikdə olan beynəlxalq münaqişələrin həlli funksiyalarını inhisar altına alması beynəlxalq münasibətlər sistemini kökündən dəyişdirir.Qloballaşan dünyada geosiyasi proseslərin təsiri altında regional münaqişələrin xarakteri xeyli dəyişmişdir: getdikcə iqtisadi, milli-etnik və

sivilizasiya münaqişələrini yaradan amillər ön plana çıxır. Həm münaqişələrin birbaşa iştirakçıları arasında, həm də bölgədən kənar qüvvələr arasında vasitəçi və sülhməramlı kimi çıxış etməyə çalışan yeni aktorlar meydana çıxır.

Son illərdə ABŞ-ın ayrı-ayrı regionların işlərinə hərbi müdaxiləsi, ayrı-ayrı ölkələrə siyasi sistemlərini dəyişdirmək, öz təsiri altına almaq və öz sosial-siyasi və iqtisadi inkişaf modellərini tətbiq etmələri üçün təzyiq göstərmək cəhdləri müşahidə olunur. ABŞ-nin İraqda niyyətlərini doğrultmaq üçün "önləyici müharibə" konsepsiyasından praktikada istifadə etməyə çalışır.

**ƏDƏBİYYAT**


1. Əsgərova N.N.Müasir mərhələdə ABŞ-ın Yaxin Şərq siyasəti:Tar. üzrə fəl. dok. dissert.Avtoreferatı. Bakı, 2018,28 s.
2. Bush G.W. President's News Conference with Prime Minister Tony Blair of the United Kingdom. – Crawford, Texas. – April 6, 2002.
3. Campbell J. Defense of the Middle East: Problems Of American Policy. New York: Harper, 1960
4. Coalition Forces in Iraq // http://usiraq.pdrocon.org/view.resource.php?resourceID=677
5. National Security Strategy 2002 // National Security Strategy Archive. 2002. 17 September. http://www.state.gov/ documents/organization/63562.pdf
6. National Security Strategy 2006 // National Security Strategy Archive. 2006. 16 March. http://nssarchive.us/ ?page_id=29.
7. National Security Strategy 2010 // National Security Strategy Archive. 2010. 27 May. http://nssarchive.us/? page_ id=8.
8. Woodward R. Bush at War. N.Y., 2002, p.412
9. Арунова М.Р., Иваненко В.И. Афганская политика США в 1945-2014 гг. М.: РИСИ, 2015. С. 201-203.
10. Ашвад А. Ближний Восток в стратегии США // Журнал Вестник РУДН,серия Политология, 2008, №1, с.74-81
11. Братерский М.В. США и проблемные страны Азии: обоснование, выработка и реализация политики в 1990-2005 гг. М.: Московский общественный научный фонд; Институт США и Канады РАН, 2005.
12. Гусейнов В.А. и др. Большой Ближний Восток: стимулы и предварительные итоги демократизации. М.: ОЛМА Медиа групп, 2007.
13. Звягельская И.Д. Политика США в конфликтах на Ближнем и Среднем Востоке при администрациях Дж.Картера и Р.Рейгана (1977-1989 гг.): диссертация на соискание ученой степени кандидата политических наук: 07.00.15. Институт востоковедения АН СССР. М., 1990. С. 23.
14. Сатаров В. Иностранное военное присутствие в Афганистане // http://pentagonus.ru/ анализ российской и американской внешнеполитической практики 2000-2008 гг: Диссертация на соиск….док. пол. наук. Санкт-Петербург, 2015, 358 с.publ/ inostrannoe_voennoe_ prisutstvie_ v_ afganistane_2010/104-1-0-2548
15. Стратегия национальной безопасности США 2010 года/ https://constitutions.ru/?p=5602